# Mühacir-publisist Hüseyn Baykara anılıb

**Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda "Luç" Ədəbi Yaradıcılıq Assosiasiyasının təşkil etdiyi tədbirdə Azərbaycan mühacirətinin və milli azadlıq hərəkatının görkəmli nümayəndəsi Hüseyn Baykaranın üç kitabının təqdimatı keçirilib.**



Hüseyn Baykara "XIX əsrdə Azərbaycanda reformizm hərəkatı" (1966), "İran inqilabı və azadlıq hərəkatı" və "Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin tarixi" (1975-ci ildə İstanbulda nəşr edilib) adlı elmi əsərlərin müəllifidir. Kitabların türkcədən azərbaycancaya uyğunlaşdırılması və rus dilinə tərcüməsi Baykaranın yaxın qohumu, Bakı Dövlət Universitetinin dosenti Azelma Həsənovanın səyləri sayəsində reallaşıb. Tərcüməçilər professor D.Yusifli, V.Rzayeva, filologiya üzrə fəlsəfə doktoru S.Əliyevadır.

"Luç" Assosiasiyasının sədri, professor Tofiq Məlikli Hüseyn Baykaranın erməni və bolşevik təcavüzü mövzusunda yazdığı çoxsaylı məqalələrdən, Azərbaycan azadlıq mübarizəsinin tarixinə və İranda inqilaba dair kitabları haqqında danışıb. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar həyatını Azərbaycanın azadlıq mübarizəsinə həsr etmiş Baykaranın irsinin öyrənilməsinin gələcək nəsillər üçün çox vacib olduğunu vurğulayıb.

Təqdimat mərasimində Hüseyn Baykaranın yaxın qohumu Azelma Həsənova çıxış edərək, əsl adı və soyadı Qara Hüseynbəyli olan adlı-sanlı qohumunun həyat yolundan danışıb. O bildirib ki, 1904-cü ildə doğulan Hüseyn Baykara Şirinbəyovlar nəslindəndir. Onun ulu babası Şirinbəy Ənnağıoğlu Qarabağ xanlığının paytaxtı Şuşa şəhərinin təməlini qoyanlardan biri olub. Adı uzun illər unudulan Hüseyn Baykara XX əsrin əvvəlində mühacirət etməyə məcbur olub və Sovet imperiyasına qarşı ideoloji mübarizəni xaricdə davam etdirib.

Ömrünün sonuna qədər Azərbaycanın azadlığı uğrunda mübarizə aparmış Hüseyn Baykara 1984-cü ildə İstanbulda vəfat edib. O, böyük uzaqgörənliklə inanırdı ki, vaxt gələcək, Azərbaycan yenidən əbədi azadlığını qazanacaq.

***N. QƏDİMOĞLU, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 11 dekabr.- S.12.